*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 406-416*

https://doi.org/10.62837/2026.7.406

**https:doi.org/10.62837/2026.x.xxx.**
**AYŞƏN BAXIŞOVA ZAHİR QIZI**
Müəllim, Heydər Əliyev adına Hərbi İnstitutu
*Polad Həşimov 29/69*
aysenbaxisova1975@gmail.com

# DÖVLƏT SƏRHƏDLƏRİNİN SİYASİ-İQTİSADİ ASPEKTLƏRİ, TƏSNİFATI VƏ FUNKSİYALARI: NƏZƏRİ VƏ PRAKTİKİ YANAŞMALAR

**Xülasə**

Müasir dövrümüzdə bəzi imperiyaların dağılması və bir çox dünya xalqlarının müstəqil dövlətlərini qurmaq arzusu beynəlxalq aləmdə dövlətlərarası münasibətlərdə sərhəd məsələsini aktuallaşdırmışdır. Bununla əlaqədar bir çox tədqiqatçılar sərhədlərlə bağlı araşdırmalar aparmış, sərhədlərin müəyyənləşdirilməsi sahəsində elmi çıxışlar etmiş, müasir sərhədlərin öyrənilməsi, müəyyənləşməsi və əhəmiyyəti barədə fikirlər söyləmişlər. Tərəfimizdən aparılan tədqiqatda da beynəlxalq aləmdə dövlətlərarası sərhəd məsələləri ilə bağlı "**Dövlət sərhədlərinin siyasi-iqtisadi aspektləri, təsnifatı və funksiyaları: nəzəri və praktiki yanaşmalar"** mövzusuna xüsusi diqqət ayırmışıq.

XX əsrin sonlarında Avropada dövlətlər arasında sərhəd problemi Şengen sazişinə əsasən həll edilmişdir.

Dünyanın bir sıra dövlətləri arasında hələ də sərhədlərlə bağlı problemli vəziyyətin qaldığı, delimitasiya və demarkasiya məsələlərinin həll edilməsi problemi gündəmə gətirilir. Tədqiqat zamanı bununla bağlı bəzi nümunələrə və tarixi faktlara da istinadlar edilmişdir.

Postmüharibə dövründə Azərbaycan və Ermənistan arasında dövlət sərhədlərinin müəyyənləşdirilməsi, anklav və eksklavlarla bağlı məsələ, dünya praktikasında bu tip situasiyalarda həll variantları və s. kimi məsələlər araşdırılmış, konkret nümunələr göstərilmiş; sərhədləri öyrənən ayrıca bir elm sahəsi olan limologiyanın meydana gəlmə zərurəti və tarixinə nəzər salınmış, konkret faktlar və misallar göstərməklə sərhədlərin xüsusiyyətləri və funksionallığı təhlil edilmişdir.

**Açar sözlər:** sərhəd, limologiya, delimitasiya, demarkasiya, eksklav.

**Giriş:**

Sərhəd və ya coğrafi sərhəd hökumətlər, dövlətlər və ya ölkənin inzibati cəhətdən bir-birindən müstəqil olan hissələri kimi siyasi strukturların coğrafi cəhətdən bitmə nöqtələrini və ya hüquqi yurisdiksiyasını təsvir edən termindir.

İlk olaraq, dövlət sərhədlərini coğrafiya elmi öyrənməyə başlamışdır. Bu elm sahəsində sərhədlərlə bağlı tədqiqatlar daha çox aşağıdakı istiqamətlərdə aparılmışdır: mübahisəli ərazilər, sərhədlərin dəyişməsinə təsir göstərən amillər, sərhədlərin təkamülü, delimitasiya

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 406-416*

və demarkasiya prosedurları, cırtdan-dövlətlər ekslavı, dəniz sərhədləri *(dənizdə tədqiqatların aparılması, resurslardan istifadə)* və s.

Qədim dövrlərdə sərhədlər - aralarında neytral zonaların mövcud olduğu və bir-birindən kəskin şəkildə ayrılmayan regionlar idi. Bu vəziyyət indiyə kimi Səudiyyə Ərəbistanı ilə Küveyt arasındakı dövlət sərhədində müşahidə olunur.

Son zamanlar dünyanın müxtəlif regionlarında cərəyan edən hadisə və proseslər, qloballaşma prosesi, xüsusilə də, sərhəd boyu inteqrasiya və müstəqilliyin artırılması istiqamətində reallaşdırılan fəaliyyətlər sərhədlərlə bağlı problemin hər zaman aktual olması məsələsini bir daha təsdiqləmiş olur. XX əsrin sonlarından həm siyasi coğrafiya, həm də cəmiyyətin bütün sahələrində sərhəd məsələsinə maraq daha da artmışdır. Sərhədlərlə bağlı tədqiqatlar dünyada gedən inkişaf prosesləri səbəbindən çox tez bir zamanda fənlərarası sahəyə çevrildi. Siyasi coğrafiya və geosiyasət üzrə məşhur Britaniya və İsrail alimi Devid Nyumanın təbirincə desək, 90-cı illərdən "sərhəd tədqiqatlarında yeni dövr", qloballaşma müzakirələrinin əsasını təşkil edən "sərhədsiz dünya" və "sərhədlər əhəmiyyətini itirir" kimi diskursları ilə milli dövlət və suverenlik anlayışlarına yeni məna verilir, yeni sərhədlər yaranır [1]. Həmin dövrdə sərhəd araşdırmaları və sərhədlərə diqqətin artması yeni dünya nizamı axtarışları ilə sıx bağlı idi.

Müasir dövrdə bir çox ölkələrin dövlət sərhədləri konkret olaraq müəyyən edilmişdir. Hava limanları, sahil limanlar və gömrük məntəqələri də, dövlətin bir növ sərhədini təşkil edir. Bununla da, ölkəyə daxil olan və ölkədən çıxan insanlar, canlılar, nağd pul vəsaitləri və məhsulların üzərində dövlət nəzarətini həyata keçirmək mümkün olur. Sərhədləri keçmək üçün insanlar pasport, viza və s. kimi sənədlərdən istifadə edirlər. Əcnəbi şəxslərdən, başqa bir ölkənin sərhədləri daxilində qalması üçün xüsusi immiqrasiya sənədləri tələb edilə bilər. Dünya təcrübəsində hər hansı bir xəstəliyin *(epidemiya, epizootiya)* ötürülməsinin qarşısını almaq üçün insanların *(bəzi hallarda heyvanların da)* sərhədi keçməsinə icazə verilmədiyi *(məhdudiyyət qoyulduğu)* hallar olmuşdur.

Dünya ölkələrinin əksəriyyətində təhlükəli *(bir sıra ekzotik canlıların)* heyvanların və narkotik *(psixotrop)* maddələrin sərhədlərdən keçirilməsi qadağan edilmişdir. Əvvəlcədən xəbərdarlıq edilmədən və yaxud icazə alınmadan müəyyən əşyaların, heyvanların sərhəddən keçirilməsi - qaçaqmalçılıq, insanların qeyri-qanuni olaraq sərhəddən keçməsi - qanunsuz *(qeyri-leqal)* immiqrasiya hesab olunur.

**Sərhəd məsələsi** dünyanın siyasi gündəmində baş verən keyfiyyət dəyişiklikləri fonunda aktuallığını qorumaqdadır:

1. Sərhədlər, onların mövqeyi və statusunun idarə edilməsi iqtisadi, siyasi və ideoloji sahədə dövlət siyasətinin əsas vasitələrindən biridir;

2. Dövlətlərin siyasi və iqtisadi kursu, praktik fəaliyyəti məhz sərhədləri ilə məhdudlaşır, limitlənir;

3. Sərhədlər millətin, regionun və dövlətin öz identikliyini qoruyub saxlamaqda vacib rol oynayır.

**Dövlət sərhədləri və onların öyrənilməsi.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 406-416*

**Sərhədlər** - dövlətin ərazisi və paytaxtı ilə birlikdə müasir dövlətin sistem formalaşdıran elementi kimi çıxış edir və dövlət suverenliyinin məkan həddini *(limitini)* göstərir. Sərhədlər həm xüsusiyyətlərinə, həm də funksiyalarına görə əhəmiyyətli dərəcədə fərqlənsə də, onların mahiyyəti ərazinin başlanğıc və son həddinin göstərilməsi, dövlət suverenliyinin əhatə olunduğu məkanın müəyyənləşdirilməsi ilə sıx bağlıdır.

Sərhədləri siyasi coğrafiyanın xüsusi sahəsi olan **limologiya** *(latınca "limes" sərhəd)* öyrənir. **Limologiya** – dövlət sərhədlərini, onların delimitasiya və demarkasiyasını, sərhədlərin funksiyalarını, sərhədlərin regionlara və bu regionlarda yaşayan müxtəlif sosial-etnik qrupların həyat fəaliyyətinə təsirini öyrənən elm sahəsidir.

**Siyasi limologiya elm kimi XIX əsrin sonlarında yaranmış, Qərbi Avropa ölkələri və ABŞ-da geniş yayılmağa başlamışdır.** Siyasi limologiya yarandığı dövrdən bu günə kimi daha çox nəzəri-təsviri xarakter daşımışdır. Bu səbəbdən də sözü gedən sahədə empirik tədqiqatların aparılmasına hələ də böyük ehtiyac duyulur.

Sərhədlərin yerinə yetirdiyi təyinata və funksiyalara uyğun olaraq, müxtəlif politoloq və coğrafiyaşünasların əsərlərində sərhəd anlayışına fərqli baxışlar formalaşmışdır. Politoloq **A.S.Makarıçev** sərhəd siyasətinə konseptual yanaşma sərgiləyərək [2], sərhəd anlayışının fərqli mənalarını aşağıdakı kimi ifadə etmişdir:

- ərazinin demarkatoru *(boundaries);*
- qonşu əraziyə keçid xətti *(borders);*
- periferiya vahidi *(margins);*
- qonşularla toqquşma xətti *(frontiers);*
- qonşularla sıx əlaqə və multikulturalizmi xarakterizə edən region *(borderlands)* [3, 4].

Müasir dövrdə sərhədlərin öyrənilməsində daha çox 3 aspektdən yanaşmaya üstünlük verilir: **praktiki, siyasi və idraki**. Burada sərhədlərin mövcudluğunun hər 3 istiqaməti nəzərə alınır: praktik fəaliyyəti, dövlətin sərhədlə bağlı siyasəti və əhalinin mövcud sərhədləri necə qəbul etməsi.

**Dövlət sərhədlərinin təsnifatında 3 əsas tip fərqləndirilir:**

1. Fiziki-coğrafi prinsipə əsasən;
2. Genezisinə (mənşəyinə) əsasən;
2. Funksionallığına (fəaliyyət xarakterinə) əsasən [5].

**1.Fiziki-coğrafi prinsipə əsasən:**

- geometrik (həndəsi) sərhədlər (düz xətlə ayrılmış);
- astronomik sərhədlər (paralellər və meridianlar üzrə);
- oroqrafik (yunanca dağ, yazmaq; "dağların təsviri") sərhədlər – suayırıcı silsiləyə (çox vaxt
dağ silsilələri ilə üst-üstə düşən) əsasən aparılan təxmini xətlərdir;
- hidroqrafik sərhədlər çaylar və göllər vasitəsilə ayrılır:
- coğrafi obyektlərin (səhra, meşə, bataqlıq, məskunlaşma arealı və s.) konturlarına əsasən;
- dəniz vasitəsilə - ölkənin ərazı sularının sərhədləri boyunca.

**2. Genezisinə *(mənşəyinə)* görə sərhədlərin növləri:**

- **Antesedent** (*latınca "əvvəldən gələn", "öncə baş verən"*) **sərhədlər** məskunlaşma şəbəkəsinin formalaşmasından əvvəl yaradılmış (ABŞ və Kanada, Malayziya və İndoneziya) sərhədlərdir;
- **Subsekvent** *(latınca "subsequens" ardınca gələn, sonrakı)* **sərhədlər** - məskunlaşma şəbəkəsi formalaşdıqdan sonra etnomədəni ərazilər *(əksər Avropa dövlətlərinin sərhədləri)* nəzərə alınmaqla yaradılmış sərhədlərdir;
- **Üst-üstə qoyulmuş sərhədlər - məskunlaşma şəbəkəsi formalaşdıqdan sonra yaradılmış, lakin etno-mədəni ərazilərin nəzərə alınmadığı sərhədlərdir** *(Afrikada müstəmləkə sərhədləri və Yaxın Şərq);*
- **Relikt** (*latınca "qalıq"*) sərhədlər - daxili demarkasiya xətlərini formalaşdırmağa davam edən əvvəl mövcud olmuş dövlətlərin sərhədlərini *(Cənubi və Şimali Vyetnam, ADR və AFR arasında)* ifadə edir.

**3. Fəaliyyət xarakterinə (funksionallığına) görə sərhədlər:**

- **Baryer** *(maneə)* **xarakterli sərhədlər** – dövlətlərin ayrılmasına, onların vətəndaşları arasında mümkün ola biləcək hər cür qarşılıqlı əlaqə və münasibətlərin qarşısını almağa *(əngəlləməyə)* yönəlik sərhədlər *(Şimali və Cənubi Koreya, Azərbaycan Respublikası və Cənubi Azərbaycan);*
- **Filtrasiyaedici xarakterə malik sərhədlər** - başqa bir dövlətdən insanların, malların, məlumatların və dəyərlərin axınını tənzimləməyə yönəlmiş sərhədlər *(Rusiya və Avropa İttifaqı ölkələri);*
- **Kontakt** *(ünsiyyət, əməkdaşlıq)* **xarakterli sərhədlər** - dövlətlərin inteqrasiyasına və vətəndaşları arasında əməkdaşlığın genişləndirilməsinə şərait yaradılmasına yönəlmiş sərhədlərdir *(Avropa İttifaqı ölkələri və yaxud Avrasiya İqtisadi Birliyi ölkələri arasında).* [5, 6]

**Dövlət sərhədləri** – dövlətin ərazisini göstərmək üçün müəyyən nöqtələrdən keçərək onları birləşdirən həqiqi və ya təxmini xətlərə deyilir [7]. Dövlət sərhədlərinin müvafiq müqavilə və sazişlər əsasında çəkilməsinin **2 proseduru var: delimitasiya, demarkasiya.**

**Delimitasiya** (*lat. delimitatio - «qeyd»; topoqrafik xəritə üzərində sərhədlərin hüquqi cəhətdən razılaşdırılması*) – qonşu dövlətlər arasında dövlət sərhədinin ümumi mövqeyinin və istiqamətinin danışıqlar yolu ilə müəyyənləşdirilməsidir. **Delimitasiya zamanı**, razılığa gələn tərəflər **xəritə üzərində**, yerlərdə, ərazidə iş aparılmadan sərhəd xəttinin keçidinin təsvirini hazırlayır. **Demarkasiya** (*fr. demarcation – ayırma; sərhədin yerində, konkret ərazidə sərhəd işarələri ilə çəkilməsi*) – əvvəlcədən hazırlanmış delimitasiya müqaviləsinə və ona əlavə olunan xəritə və təsvirlərə uyğun şəkildə dövlət sərhəd xəttinin yerində müəyyənləşdirilməsi və qeyd edilməsidir. Demarkasiya sərhəd xəttinin ərazi üzərində çəkilməsinə deyilir [7].

**Redemarkasiya** - fiziki-coğrafi dəyişikliklərlə əlaqədar, sərhəd xəttinə müntəzəm olaraq yenidən baxılmasıdır. Eyni zamanda, vaxtilə müəyyən edilmiş sərhəd xəttinin yoxlanılması, pozulmuş və köhnəlmiş sərhəd nişanlarının bərpa edilməsi prosesi də

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 406-416*

redemarkasiya adlanır [7]. (İsveçrə və İtaliya arasında Alp dağlarında buzlaqların əriməsi nəticəsində sərhədlərin redemarkasiyasının həyata keçirilməsi).

**Delimitasiya zamanı müxtəlif sərhəd növlərinin müəyyənləşdirilməsində ortaya çıxan mürəkkəb situasiyaları nəzərdən keçirək:** Geometrik *(həndəsi),* astronomik, oroqrafik və kontur sərhəd növlərinin delimitasiyası bir o qədər də mübahisələrə səbəb olmasa da, hidroqrafik (dəniz) sərhədlərdə yaranan mübahisələr BMT-nin Dəniz hüququ haqqında Konvensiya *(1982-ci il 10 dekabr)* ilə tənzimlənir.

Çaylarla bağlı hidroqrafik sərhədlərin delimitasiyası zamanı aşağıdakı yanaşmalar mümkün olur:

1. Çayın tən ortası və yaxud onun əsas yatağında hər iki sahildən eyni uzaqlıqdan sərhəd xəttinin
müəyyənləşdirilməsi;

2. Çayın əsas **farvater** *(ing. far water - «sudan uzaq», çayin ən dərin sahələri uzrə keçən xətt)* və
yaxud **talveq** *(almanca tal-dərə, weg-yol)* üzrə keçməsi *(hər iki ölkəyə naviqasiya və gəmicilik,*
*təsərrüfat fəaliyəti ilə məşğul olmaq imkanı yaratmaqla);*

3. Digər dövlətə çayın hər hansı resursundan istifadə etmək *(yararlanmaq)* imkanı tanımadan həmin
dövlətin sahil xətti boyunca müəyyənləşdirilməsi *(İran-İraq müharibəsinin bir səbəbi də bu*
*olmuşdur).*

Çaylar üzərindən sərhəd xəttinin müəyyənləşdirilməsi müntəzəm olaraq *(təxminən 10 ildən bir)* redemarkasiya tələb edir, belə ki, çayların sahilləri boyunca eroziya prosesi baş verə, yeni adacıqlar və dayazlıqlar yarana bilir.

**Göllər üzərindən hidroqrafik sərhədlərin delimitasiyası zamanı aşağıdakı yanaşmalar ola bilər:**

- Sərhədin sahil nöqtələrini birləşdirən düz xətt boyunca;
- Gölün ortasından: ya hər iki sahildən eyni uzaqlıqda yerləşən *(Xəzər dənizində də tətbiq olunan*
***orta xətt prinsipi)***, yaxud da gölü iki bərabər hissəyə ayıran xətt boyunca;
- İzobata *(göldə eyni dərinliyə malik olan nöqtələri birləşdirən xətt)* əsasən.

**Dövlət sərhədlərinin dəyişdirilməsi formaları:**

1. Müəyyən ərazi üzərində olan bütün suveren hüquqların başqa bir dövlətə ötürülməsi *(Rusiya imperiyası tərəfindən Alyaskanın ABŞ-a satılması nəticəsində sərhədlərin dəyişdirilməsi, 1867-ci il);*

2. Ərazisinə görə çox da böyük olmayan ölkənin könüllü şəkildə digər dövlətin tərkibinə daxil olması *(Tuva Xalq Respublikasının SSRİ-nin tərkibinə qatılması);*

3. Quru *(torpaq)* ərazilərin süni şəkildə artırılması – **dəniz akkressiyası** *(Niderlandın süni ərazi artırması);*

4. Müəyyən ərazinin dövlətin tərkibindən ayrılması *(Böyük Fin knyazlığının SSRİ-nin tərkibindən çıxması);*

5. Dövlətlərin birləşməsi *(Almaniya Demokratik Respublikası və Almaniya Federativ Respublikasının birləşməsi)*;

6. Beynəlxalq məhkəmənin qərarına əsasən, ərazinin dəyişdirilməsi *(Kəşmir ştatının bölüşdürülməsi nəticəsində Hindistan və Pakistan sərhədlərinin dəyişməsi)* [8].

**Sərhəd mübahisələri** ərazi mübahisələrinə, resurslar uğrunda, mövqelər uğrunda və funksional mübahisələrə bölünür.

- **Ərazi mübahisəsi** – iki və daha çox dövlət arasında konkret ərazinin hüquqi mənsubiyyəti ilə bağlı beynəlxalq mübahisədir;
- **Resurslar uğrunda sərhəd mübahisələri** daha çox ortaq su sahəsi, qurudulmuş ərazi və kontinental şelfdə təbii ehtiyatların *(neft, qaz və s.)* hasilatı və mənimsənilməsi ilə bağlı yaranır;
- **Mövqelərlə bağlı sərhəd mübahisələri** dövlətlər arasında təbii sərhədlərlə *(çay, göl)* bağlı müqavilələrin şərhi zamanı ortaya çıxır *(Kamerun, Çad, Niger, Nigeriya arasında Çad gölü);*
- **Funksional mübahisələr** tərəflərdən birinin qonşu dövlətin həyata keçirdiyi sərt gömrük və sərhəd nəzarət siyasətinə etiraz etməsi nəticəsində yaranır [9].

Bir qayda olaraq, **dövlət sərhədi - sərhəd nişanları və ya sərhəd dirəkləri ilə göstərilir.**

Belə strukturların görünüşü vətəndaşlar üçün **psixoloji təhlükəsizlik hissi** yaradır. Buna ***özünü qəfəsdə qapatmaq təsiri*** *(selfcaging)* deyilir [9].

Sərhədləri aşağıdakı kateqoriyalara ayırmaq olar:

- **Təbii sərhədlər:** Bu sərhədlər təbii coğrafi obyektlərə əsaslanır, məsələn, dağ silsilələri, çaylar, göllər və ya dənizlər. Məsələn, Azərbaycan ilə İran arasındakı sərhədin bir hissəsi Araz çayı boyunca keçir;
- **Süni sərhədlər:** Bu sərhədlər insan tərəfindən müəyyən edilmişdir və coğrafi obyektlərə əsaslanmır. Adətən, xəritələrdə düz xətlər kimi göstərilir. Məsələn, Azərbaycan ilə Ermənistan arasındakı bəzi sərhəd hissələri süni sərhədlərdir**;**
- **Siyasi sərhədlər:** Bu sərhədlər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü müəyyən edir. Azərbaycan Respublikasının və digər dövlətlərin sərhədləri buna misaldır;
- **İqtisadi sərhədlər:** Bu sərhədlər iqtisadi zonaları və ya ticarət bölgələrini müəyyən edir. Məsələn, Xəzər dənizindəki iqtisadi zonalar bu kateqoriyaya aiddir;
- **Mədəni** *(etnoqrafik)* **sərhədlər:** Bu sərhədlər mədəniyyət, din, dil və ya etnik qruplar arasında fərqləri göstərir. Məsələn, bəzi bölgələrdə etnik azlıqların yaşadığı ərazilər mədəni sərhədlər kimi qəbul edilə bilər.

**Sərhədlər müxtəlif funksiyalara malikdir:**

1. **Suverenlik və təhlükəsizlik funksiyası:** Sərhədlər konkret ölkənin suverenliyini və ərazi bütövlüyünü qoruyur. Onlar ölkənin təhlükəsizliyini təmin etmək üçün vacibdir.

2. **İqtisadi funksiya:** Sərhədlər ticari və iqtisadi fəaliyyəti tənzimləyir. Gömrük məntəqələri vasitəsilə insanların, malların və xidmətlərin hərəkəti nəzarət altına alınır.

3. **İnzibati və hüquqi funksiya:** Sərhədlər ölkənin qanun-qaydalarının tətbiq olunduğu ərazini müəyyən edir. Bu, hüquqi və inzibati idarəetməni asanlaşdırır.

4. **Mədəni və sosial funksiya:** Sərhədlər mədəni və sosial fərqlilikləri qorumağa kömək edir. Onlar müxtəlif mədəniyyətlərin və dillərin yayılmasını tənzimləyir.

5. **Ekoloji funksiya:** Sərhədlər ekoloji mühafizə və təbii resursların idarə olunmasında da rol oynayır və ətraf mühitin qorunması üçün vacibdir [10].

Hər bir dövlət öz sərhədlərinin toxunulmazlığını təmin etmək üçün müvafiq hüquqi rejim müəyyən edir; bu rejim beynəlxalq müqavilələrə və daxili qanunvericiliyə əsaslanır. Məsələn, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun II fəsli bütövlükdə bu məsələyə həsr olunmuşdur.

**Sərhəd rejimi aşağıdakı məsələləri əhatə edir:**

1) dövlət sərhədinin lazımi vəziyyətdə saxlanması;

2) dövlət sərhədindən şəxslərin və nəqliyyat vasitələrinin keçmə qaydası *(o cümlədən, quru sərhədində keçid məntəqələrinin və hava sərhədində uçuş koridorlarının müəyyən olunması);*

3) dövlət sərhədindən malların və yüklərin buraxılması qaydası;

4) dövlət sərhədində təsərrüfat və ya digər fəaliyyətin *(ov, bağçılıq, dağ-mədən işləri və s.)* həyata keçirilməsi qaydası;

5) sərhəd rejiminin pozulması ilə bağlı insidentlərin müvafiq dövlətlərlə birgə həll olunması qaydası.

Sərhəd rejiminə riayət olunmasına nəzarət etmək və sərhəd insidentlərini həll etmək üçün müvafiq dövlətlər, adətən, sərhəd komissarları (sərhəd nümayəndələri) təyin edir.

Dövlət sərhədi haqqında müqavilələr olduqca mühüm bir xüsusiyyətə malikdir: onlar daimi müqavilələr sayılır. Belə ki, bu müqavilələr:

a) müvəqqəti müddətə bağlanmır *(onların məqsədi iki dövlət arasında sərhədin tam və qəti müəyyən olunmasıdır);*

b) **denonsasiya** *(fransızca denoncer - "pozmaq")* olunmur, çünki belə müqavilələrdə denonsasiya haqqında müddəalar nəzərdə tutulmur;

c) müharibənin başlanması ilə öz qüvvəsini dayandırmır;

ç) müqavilənin subyektinin yox olması nəticəsində xitam olunmur;

d) birtərəfli qaydada, hətta şəraitin köklü dəyişməsi prinsipi əsasında belə, ləğv oluna bilməz;

e) dövlətlərin varisliyi zamanı toxunulmamış qalır.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunda Azərbaycan Respublikasının dövlət sərhədinin müəyyən edilməsi qaydaları öz əksini tapmışdır. Qanunun 3-cü maddəsində deyilir: Azərbaycan Respublikasının bağladığı müqavilələrdə

başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının dövlət sərhədi belə müəyyən edilr:

1) quruda - relyefin səciyyəvi nöqtələri və xətləri, aydın görünən səmt göstəriciləri üzrə;

2) Xəzər dənizində - Azərbaycan Respublikasının ərazi sularının xarici sərhədi üzrə;

3) çaylarda *(kiçik çaylarda)* - onların ortası və ya çayın əsas qolunun ortası üzrə; göllərdə və başqa sututarlarda - Azərbaycan Respublikası sərhədinin bu gölün və ya başqa sututarın sahillərinə yanaşdığı iki nöqtəni birləşdirən düz xətt üzrə;

4) Azərbaycan Respublikasının çay *(kiçik çay)*, göl və ya başqa sututar boyunca uzanan dövlət sərhədi bunların sahillərinin konfiqurasiyası dəyişdikdə və ya çayın *(kiçik çayın)* yatağı yerini dəyişdikdə dəyişmir;

5) çayların *(kiçik çayların)* sərhədboyu hissələrində salınmış dəmir yolu və avtomobil yolu körpülərində, bəndlərdə və başqa qurğularda – Azərbaycan Respublikasının dövlət sərhədinin suyun harasından keçməsindən asılı olmayaraq bu qurğuların ortası və ya texnoloji oxu üzrə" [11].

Daha bir vacib məsələ Azərbaycan Respublikasının **eksklavları** *(latınca "ex" kənarda, xaricdə, "clavus" açar, kilid; kənarda qalmış, əsas ərazidən ayrılmış hissə mənasının verir*) ilə bağlıdır.

Dünya təcrübəsində anklav problemini həll etməyin aşağıdakı yolları fərqləndirilir:

1.Eyni ölçüyə malik ərazilərin dəyişdirilməsi (məs., Özbəkistan və Qırğızıstan arasında);

2.Əhalinin köçürülməsi (Türkiyə və Yunanıstan presedenti) [12].

Beynəlxalq təcrübədə eksklavlarla bağlı eyni sahəyə malik ərazi ilə dəyişdirilməsinə daha bir misal olaraq, Hindistan və Banqladeş arasında həmsərhəd bölgələrdə yerləşən anklavların dəyişdirilməsini nəzərdə tutan müqavilə 162 ərazinin (111 – Banqladeşə, 51-Hindistana) statusunun dəyişdirilməsi və bu ərazilərdə yaşayan 50 min insana vətəndaşlığı seçmək hüququnun tanınmasını göstərmək olar. Daha bir örnək Belçika və Hollandiya arasında bir-birinin daxilində onlarla eksklav və anklavın olduğu Baarle qəsəbəsinin bölüşdürülməsi sərhəd problemini münaqişəyə çevirməmiş, turizm və iqtisadi inkişafın stimullaşdırılmasına səbəb olmuşdur. Almaniyanın İsveçrə ərazisində yerləşən Büsingen eksklavında yaşayan əhalinin İsveçrə iqtisadi sisteminə inteqrasiya etməsi ilə bağlı daha bir misal göstərmək olar. Mərkəzi Asiyanın Özbəkistan, Qırğızıstan və Tacikistan arasında hələ SSRİ dövründən mövcud olan eksklavlarla bağlı son illərdə lokal razılaşmalar əldə olunaraq bütün ərazilərlə bağlı tam razılığa gəlinməsə belə, gərginliyin nisbətən azaldığı nəzərə çarpır [12].

2020-ci il 44 günlük müharibə və 2023-cü il lokal antiterror əməliyyatları nəticəsində dövlətimiz BMT səviyyəsində tanınmış ərazi bütövlüyüymüzü və suverenliyimizi bərpa etdi. 1991-ci ilin dekabr ayından başlayaraq işğal altına alınmış ərazilərimiz minalardan təmizlənir, aktiv təmir-tikinti-bərpa işləri aparılır, 30 il ərzində dağıdılmış infrastruktur yenidən qurulur, Qarabağ və ətraf rayonların dirçəldilməsi istiqamətində quruculuq işləri

həyata keçirilir, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvasına qayıdır. Bütün bu proseslər sərhədlərin delimitasiya və demarkasiyası üzrə danışıqlarla paralel aparılır. Uzunmüddətli, mərhələlərlə həyata keçirilən ikitərəfli siyasi-texniki danışıqlar sərhəd komissiyalarının daimi əməkdaşlığını tələb edir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin məlumatına əsasən, bu istiqamətdə sonuncu 12-ci iclas 2025-ci ilin 28 noyabr tarixində Qəbələ şəhərində keçirilmişdir. İndiyə kimi komissiyalar sərhədlərin delimitasiyasının şimaldan cənuba doğru, yəni Gürcüstan-Azərbaycan-Ermənistan sərhədinin kəsişmə nöqtəsindən başlayaraq İran İslam Respublikasının sərhədinə qədər mərhələlərlə aparılması barədə razılıq əldə olunmuşdur. 2024-2025-ci illər ərzində təxminən 12-13 km uzunluğunda bir hissə delimitasiya olunaraq, sərhəd dirəkləri basdırılmış və sərhədçilər yerləşdirilmişdir.

**Nəticə:**

Beynəlxalq saziş və konvensiyalara əsasən müasir dünya sistemində Birləşmiş Millətlər Təşkilatı çərçivəsində tanınmış dövlətlərin sərhədləri beynəlxalq hüquqa əsasən toxunulmazdır. Lakin müasir sünyada gedən hərbi, iqtisadi və siyasi prosesləri nümunə gətirməklə *(Rusiya-Ukrayna müharibəsi, ABŞ, İzrail və İran arasında , Qəzza ilə bağlı məsələlərdə və çox sayda digər misallar)* göstərmək olar ki, burada beynəlxalq hüquq mexanizmi ya super güclərin maraqlarına xidmət edir, ya da ki, tamamilə işləmir. Bu baxımdan hesab edirik ki, Psərhədlərin təhlükəsizlik rolu, mədəniyyətlərin müdafiəsi, hüquqi nizamı və sərmayələrin təhlükəsiz dövr etməsini təmin etmək bacarığı ön planda olmalı, bu istiqamətdə sərhədlərlə bağlı Beynəlxalq gücə malik təşkilatlar tərəfindən daha çevik yanaşmalar olmalı, qərarlar qəbul edilməlidir.

**Ədəbiyyat:**

1. Newman Devid. Borders and bordering: Towards an interdisciplinary dialogue. European Journal of Social theory, 9 (2), - 2006, - p. 171-186.
2. Макарычев, А.С. Государства, экспертные сообщества и режимы знания власти. Ponars Eurasia № 367, - 2015, - с. 9-26.
3. Makarychev, A., Kuznetsova, A. Russian-Norwegian borderlands: three factes of geopolititcs Journal of Borderlands studies, - 2022.- p. 379-398.
4. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya - Ümumi Coğrafiya. - 2016, - 445 s.
5. Окунев, И.Ю. Политическая география. Учебник для студентов вузов. Москва, - 2021,-512 с.
6. Hartshorne Richard Geographic and Political Boundaries in Upper Silesia. Annals of the Association of American Geographers, Vol. 23, No. 4, - 1933, - p. 195-228.
7. Ağarzayev, A., Bəkirov, N., Nağıyev, R., “Politologiya və beynəlxalq münasibətlər” Bakı, - 2014,- 320 s.
8. Макошев, А.П., Политическая география и геополитика. Учебное пособие. Горно–Алтайск - 2006, - 125 с.

9. Цветкова, О.В., Политическая лимология: концепт границы. Политическое пространство региона, - 2015, - с.5-13.
10. Максаковский, В.П., Географическая картина мира. Москва, -2008, - 496 с.
11. "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Qanun, 9 dekabr 1991-ci il
12. Baxışova, A.Z., İmranov, E.F., Siyasi coğrafiya. Dərs vəsaiti. Bakı, -2025, - 307 s.

## ПОЛИТИКО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ, КЛАССИФИКАЦИЯ И ФУНКЦИИ ГОСУДАРСТВЕННЫХ ГРАНИЦ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПОДХОДЫ

**Айшан Бахишова**

### РЕЗЮМЕ

Концепция границы всегда была актуальной проблемой и остается таковой в нашу современную эпоху. В наше время распад некоторых империй и стремление многих народов мира к созданию независимых государств сделали пограничный вопрос актуальным в межгосударственных отношениях на международной арене. В связи с этим многие исследователи проводили исследования границ, высказывали научные мнения в области делимитации границ, а также рассматривали изучение, определение и значение современных границ. В проведенных нами исследованиях мы уделили особое внимание «политико-экономическим аспектам, классификации и функциям государственных границ: теоретическим и практическим подходам» в отношении межгосударственных пограничных вопросов на международной арене.

В конце XX века проблема границ между государствами Европы была решена путем создания безвизового режима между государствами в рамках Шенгенского соглашения. Среди ряда государств мира, где до сих пор сохраняется проблемная ситуация с границами, на повестку дня вынесен вопрос решения вопросов делимитации и демаркации путем создания буферных зон между некоторыми государствами. В ходе исследования также были приведены примеры и исторические факты по этому поводу.

Были исследованы такие вопросы, как определение государственных границ между Азербайджаном и Арменией в послевоенный период, вопрос анклавов и эксклавов, решения подобных ситуаций в мировой практике и т. д., приведены конкретные примеры; рассмотрена необходимость и история возникновения лимологии, отдельной научной области, изучающей границы, а также проанализированы характеристики и функциональность границ с указанием конкретных фактов и примеров.

**Ключевые слова:** границы, лимология, делимитация, демаркация, эксклав

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 406-416*

**Aysen Baxisova**

## POLITICAL-ECONOMIC ASPECTS, CLASSIFICATION AND FUNCTIONS OF STATE BORDERS: THEORETICAL AND PRACTICAL APPROACHES

## SUMMARY

The concept of border has been a relevant issue at all times and remains relevant in our modern era. In our modern era, the collapse of some empires and the desire of many peoples of the world to establish independent states have made the border issue relevant in interstate relations in the international world. In this regard, many researchers have conducted research on borders, expressed scientific opinions in the field of border delimitation, and expressed opinions on the study, definition and importance of modern borders. In the research conducted by us, we have paid special attention to "political-economic aspects, classification and functions of state borders: theoretical and practical approaches" regarding interstate border issues in the international world.

At the end of the 20th century, the border problem between states in Europe was solved by creating a visa-free regime system between states under the Schengen Agreement.

Among a number of states in the world, where the problematic situation regarding borders still remains, the issue of resolving the issues of delimitation and demarcation by creating buffer zones between some states is brought to the agenda. References to examples and historical facts in this regard were also made during the study.

Issues such as the determination of state borders between Azerbaijan and Armenia in the post-war period, the issue of enclaves and exclaves, solutions to such situations in world practice, etc. were investigated, specific examples were shown; the necessity and history of the emergence of limology, a separate scientific field that studies borders, were considered, and the characteristics and functionality of borders were analyzed by showing specific facts and examples.

**Keywords:** borders, limology, delimitation, demarcation, exclave.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Novruz Bəkirov tərəfindən çapa tövsiyə edilmişdir**